
Horizon Multidisciplinary Scientific Journal
Journal homepage: https://horizonmsj.com/
ISSN 3135-4890
E-ISSN 3135-4904



Original Research Paper

ƏCƏMİ NAXÇİVANİNİN YARADICILIĞINDA İKİMƏRTƏBƏLİ MƏQBƏRƏLƏR: KONSTRUKTİV VƏ SEMANTİK STRUKTUR

Aytən Səlimova[1], Durdanə Aslanzadə[2]

[1]https://orcid.org/0000-0003-1824-6730
[2]https://orcid.org/0009-0003-4394-1695

[1]AzMİU / Memarlıq fakültəsi, Bakı, Azərbaycan
[2]BMU / Memarlıq-inşaat fakültəsi, Xırdalan, Azərbaycan

Article history
Received: 01.11.2026
Revised: 10.11.2026
Accepted: 17.11.2026

*Corresponding Author: Aytən Səlimova, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı, Azərbaycan
Email:aytan.salimova@azmiu.edu.az

Xülasə

Məqalədə Əcəmi Naxçıvaninin yaradıcılığındakı ikimərtəbəli məqbərə tipi konstruktiv məntiqin və məkanın semantik təşkilinin qarşılıqlı surətdə şərtləndiyi bütöv bir memarlıq sistemi kimi nəzərdən keçirilir. Bu məqbərələr mühəndislik təfəkküründü və dövrün dini-mənəvi dünyagörüşünü əks etdirir. Əsas diqqət Yusif ibn Küseyr (1162) və Möminə Xatun (1186) məqbərələrinə yönəldilir. İkimərtəbəlilik aşağı dəfn kamerası — sərdabə — ilə üst xatirə və dua məkanının birləşməsi kimi başa düşülür. Möminə Xatun məqbərəsinin yeraltı qatının konstruktiv baza, çoxüzlü forma, mərkəzi dayaq və radial tağlar kimi rolu, günbəzin qoşa qabığı, piramidal örtüyü, kərpic hörgüsü və epiqrafik qurşaqları təhlil olunur. Seysmoloji aspekt ayrıca nəzərdən keçirilir: ikihissəli şaquli struktur, kütlələrin paylanması, çoxüzlü plan və yüngülləşdirilmiş üst hissə passiv seysmodavamlılıq prinsipləri ilə müqayisə edilir. Semantik şərh aşağı dəfn məkanının üst xatirə və dua məkanı ilə qarşılaşdırılmasına, həmçinin fiziki aləmdən mənəvi aləmə keçid ideyasına əsaslanır. Göstərilir ki, Əcəminin yaradıcılığında ikimərtəbəli sxem təkcə funksional model deyil, həm də Naxçıvan memarlıq məktəbinin müəyyənedici tipoloji xüsusiyyətlərindən birinə çevrilir.

Açar sözlər: *Əcəmi Naxçıvani, ikimərtəbəli məqbərə, sərdabə, Möminə Xatun, Yusif ibn Küseyr, Naxçıvan memarlıq məktəbi, seysmodavamlılıq, qoşa günbəz, semantika*

GİRİŞ

Orta əsr Azərbaycan memarlığı abidələri içərisində xatirə tikililəri — türbələr xüsusi yer tutur. İkimərtəbəli türbələr Azərbaycanın orta əsr xatirə memarlığının ən ifadəli tiplərinə daxildir. Onların

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license.

DOI: https://doi.org/10.5281/zenodo.24299530

memarlıq strukturu funksiyasına və obrazına görə müxtəlif olan iki hissəni bir şaquli həcmdə birləşdirir: aşağı yeraltı dəfn məkanı — "sərdabə" və üst xatirə kamerası. Belə tikililər Azərbaycanda əsasən XI əsrin ikinci yarısından etibarən yaradılmağa başlanmış, XII əsrin ikinci yarısından etibarən isə geniş yayılmışdır. Azərbaycan qülləvari türbələrinin ən yaxşı nümunələri Əcəmi Əbubəkr oğlu Naxçıvaninin (təq. 1136 — təq. 1225) adı ilə bağlıdır. Əcəminin işləyib hazırladığı kompozisiya və dekorativ üsullar həm bütün Azərbaycanda, həm də qonşu ölkələrdə məqbərələrin tikintisinə böyük təsir göstərmişdir. Onun əsas əsərlərinə Yusif ibn Küseyrin qəbirüstü abidəsi (1162-ci il), Azərbaycan atabəyi Məhəmməd Cahan Pəhləvanın sifarişi ilə ucaldılmış Möminə Xatun məqbərəsi (1186-cı il), həmçinin tarixi sənədlərlə müəllifliyi təsdiq olunan Naxçıvandakı Eldənizlər ansamblının monumental iki minarəli portalı daxildir. Dövrümüzə gəlib çatmamış Cümə məscidinin özünün müəllifliyi adətən Əcəmiyə aid edilir, baxmayaraq ki, onun binanın tikintisindəki iştirakı portalın daha etibarlı şəkildə təsdiq olunmuş müəllifliyindən fərqləndirilməlidir. Memarlıq-üslub oxşarlıqları Marağadakı Dairəvi qüllə və Günbəd-e Kabudda, eləcə də Urmiyadakı Sə-Günbəddə (müasir İran) aşkar olunur; bütün bu tikililərin birbaşa Əcəmiyə atributsiyasını sübut olunmuş hesab etmək olmaz. Ehtimal etmək lazımdır ki, memara aid edilən bir çox tikililər dövrümüzə gəlib çatmamışdır [1, 2].

Məqalənin məqsədi — Yusif ibn Küseyr və Möminə Xatun məqbərələrinin materialı əsasında Əcəmi Naxçıvaninin yaradıcılığında ikimərtəbəliliyin necə funksional üsuldan dayanıqlı memarlıq prinsipinə çevrildiyini göstərməkdir. Bir-biri ilə sıx bağlı olan üç aspekt nəzərdənkeçirilir: aşağı və üst qatların konstruktiv təşkili; məkan dayanıqlığının təmin edilməsində günbəzin qoşa qabığının və çoxüzlü formanın rolu; dəfn məkanından xatirə və dua məkanına şaquli keçidin semantikası. Seysmoloji faktora ayrıca diqqət yetirilir, çünki abidələrin dayanıqlığı Əcəminin mühəndislik təfəkküründün ən mühüm sübutu kimi qiymətləndirilir. Yusif ibn Küseyr məqbərəsini və Möminə Xatun məqbərəsini ucaltmaqla memar qülləvari ikimərtəbəli məqbərə ənənəsini konstruksiya, proporsiyalar, kərpic hörgüsünün plastikası, ornament və epiqrafikanın ümumi ideyaya tabe olduğu bütöv memarlıq sistemi səviyyəsinə qaldırmışdır [3].

Metodologiya. Məqalədə təhlil səviyyələrini fərqləndirmək üçün bir-biri ilə əlaqəli üç koddan istifadə olunur: texniki (material, konstruksiya və yüklərin ötürülməsi yolları), sintaktik (planın həndəsi quruluşu, həcmlərin nisbəti, üzlərin və ornamentin ritmi) və semantik (məkan və obraz təşkilinin mümkün mənaları). Tədqiqat hər şeydən əvvəl memarlıq-tipoloji müqayisəyə və semiotik təhlilə əsaslanır. K.Q. Yunqun analitik psixologiyası ruhunda arxetipik şərh bizim tərəfimizdən semantik model kimi cəlb edilir [4], lakin bununla belə, memarın özünün niyyətinin sübutu deyil. Sufi təsəvvürləri ilə mümkün paralellər fərziyyə kimi verilir. Rene Genon, Frityof Şuon və Seyid Hüseyn Nəsr əsərlərində təqdim olunan islam memarlığının ənənəçi şərhləri həndəsi formaları kosmoloji qayda ilə əlaqələndirir. Biz bu yanaşmanı mümkün şərh dili kimi nəzərdən keçiririk.

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (8): page 86-95
DOI: https://doi.org/10.5281/zenodo.24299530

Yusif ibn Küseyr məqbərəsi

Yusif ibn Küseyr məqbərəsi (1162-ci il) Əcəminin memarlıq metodunun erkən yetkinliyinin ən aydın nümunələrindən biridir. Abidə iki hissədən — yeraltı dəfn kamerasından və səkkizüzlü prizmatik yerüstü hissədən ibarətdir. Belə bir həll məqbərəyə vahid şaquli orqanizm kimi baxmağa imkan verir; burada aşağı və üst zonalar funksiyalarına görə fərqlənir, lakin ümumi həndəsi struktura tabe olurlar. L.S. Bretanitski məqbərənin memarlığında özünəməxsus «xəyali karkas» hissindən bəhs edirdi: kvadrat kərpicdən hörülmüş və hamar hörgü zolağı ilə birləşdirilmiş künc dayaqları bütövlükdə ornamentlə örtülmüş batıq fasad səthlərini çərçivələyir. Bu xarakteristika ikimərtəbəli sistemi başa düşmək üçün vacibdir: konstruktiv xəttlər dekorla gizlədilmir, bədii dilin bir hissəsinə çevrilir [2, 3].

Yusif ibn Küseyr məqbərəsi üçün ikimərtəbəlilik son dərəcə aydın şəkildə təzahür edir: səkkizüzlü yerüstü kamera sərdabə ilə birləşir, özü də xarici həcmin həndəsi müəyyənliyi daxili quruluşda da qorunub saxlanılır. Bu, səkkizbucaqlıya təkcə fasad örtüyünün forması kimi deyil, həm də məqbərənin iki səviyyəsinin uzlaşdırılması prinsipi kimi baxmağa imkan verir [1]. Məqbərənin qərb üzü əsas kimi ayrılmışdır. Burada giriş və tikinti yazısı yerləşir. Fasadların üst hissəsi həndəsi ornamentlə örtülüb, bütün perimetr üzrə isə geniş kufi friz keçir. Nəticədə üst xatirə kamerası sərdabənin təmkinli xarakterindən prinsipial şəkildə fərqlənən bədii ifadə alır. Bu fərq abidənin bütövlüyünü pozmur, əksinə, gizli qəbir və açıq xatirə məkanı arasındakı məna iyerarxiyasını gücləndirir [3].

Yusif ibn Küseyr məqbərəsi bütöv səkkizüzlü məkan strukturunu təşkil edir. Abidənin planı daxildən və xaricdən oktaqona əsaslanır: səkkiz fasad müstəvisi qapalı mərkəzi kontur əmələ gətirir, üst piramidal örtük isə şaquli kompozisiyanı tamamlayır. Beləliklə, səkkiz rəqəmi burada xarici cizgilərlə məhdudlaşmır: o, abidənin məkan və kompozisiya quruluşunu tənzimləyir. Semantik oxunuşda səkkizbucaqlı kvadrat — dünyəvi nizamın obrazı ilə dairə — adətən səmavi və mükəmməl forma ilə əlaqələndirilən dairə arasında keçid fiquru kimi nəzərdən keçirilə bilər. Bəzən səkkizüzlü formanı Quranda (69:17) xatırlanan Ərşi daşıyan səkkiz mələk motivi ilə və ya dünyəvi ilə səmavi arasındakı keçid obrazı ilə əlaqələndirirlər. Ənənəçi şərhdə səkkizlik sxemlə həm də Cənnətin səkkiz qapısı motivi uyğun gəlir; lakin bu mənanı memarın özünün sənədləşdirilmiş proqramı kimi deyil, mümkün simvolik şərh kimi təqdim etmək lazımdır. Beləliklə, hələ Yusif ibn Küseyr məqbərəsində sonralar daha mürəkkəb formada Mömünə Xatun məqbərəsində təzahür edəcək prinsip yaranır: daxili məkan və xarici obraz öz həndəsi quruluşunu alır, lakin vahid konstruktiv sistem kimi işləyirlər.


Mömünə Xatun məqbərəsi

1186-cı ildə başa çatdırılmış Mömünə Xatun məqbərəsi Əcəmi Naxçıvaninin yaradıcılığında ikimərtəbəli modelin inkişafının zirvə nöqtəsidir. Hündür onüzlü həcm, mərkəzi dayaqla yeraltı dəfn


This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (8): page 86-95
DOI: https://doi.org/10.5281/zenodo.24299530

kamerası, radial tağlar sistemi, zəngin epiqrafika və ən mürəkkəb həndəsi dekor elə bir vahid struktur əmələ gətirir ki, burada aşağı və üst qatlar dəqiq fərqlənən təyinatına və eyni zamanda sıx konstruktiv qarşılıqlı əlaqəyə malikdir [5]. Möminə Xatunda həmin tipoloji formula başqa miqyas alır: iki otaq bir-birinin üzərində yerləşir, bu zaman dəfn məkanı funksional cəhətdən üst xatirə qatından təcrid olunmuşdur. Ona görə də şaquli kompozisiya burada sadəcə mərtəbəliliyi deyil, funksiyalar iyerarxiyasını ifadə edir: aşağı səviyyə dəfn olunma ilə, üst qat isə xatirəsinin əbədiləşdirilməsi və abidənin ritual qavrayışı ilə bağlıdır [1]. Yeraltı hissənin konstruksiyası xüsusilə özünəməxsusdur. Sərdabənin mərkəzində massiv onüzlü kərpic dayaq yerləşir [6, 5], onun üzlərindən xarici divarlara doğru oxvari tağ-tirlər radial şəkildə şaxələnir. Onların arasındakı məkanlar kərpic tağlarla örtülüb, nəticədə özünəməxsus çətirvari və ya «göbələkvari» məkan sistemi əmələ gəlir. O, dəfn məkanını təşkil edir və eyni zamanda üst həcmin dayaq karkası kimi işləyir: yüklər təkcə xarici kontura deyil, həm də mərkəzi sütuna ötürülür. Bu həll Əcəminin mühəndislik təfəkküründün ən ifadəli təzahürlərindən biridir.



Şəkil 1. Yusif ibn Küseyr türbəsi (1162). Giriş portalının görünüşü, şaquli kəsiyi və səkkizbucaqlı planı.



Şəkil 2. Möminə Xatun türbəsi (1186). Şaquli kəsik, onbucaqlı plan və sərdabənin radial tağ sisteminin sxemi.

Aşağı və üst qatların semantikası. İkimərtəbəlilik orta əsr xatirə memarlığının dayanıqlı tipoloji sxemini təmsil edir: gizli dəfn kamerası (sərdabə) yerüstü xatirə həcmində birləşdirilmişdir. Əcəminin abidələrində bu sxem ardıcıl konstruktiv və bədii inkişaf alır [1].

Qatların bölünməsi funksional və semantik cəhətdən ifadə olunub, lakin hər iki məkan vahid memarlıq həcmi əmələ gətirir. Aşağı qat dəfn üçün nəzərdə tutulub; üst qat isə xatirənin əbədiləşdirilməsi və tikilinin ritual qavranılması üçündür. Onların qarşılıqlı əlaqəsi abidənin şaquli kompozisiyasını müəyyənləşdirir. Gizli dəfn məkanı ilə ziyarətçiyə açıq üst qat arasında məna təzadı yaranır; konstruktiv əlaqə isə tikilinin bütövlüyünü təmin edir. Bu kontrastın qavranılması yerüstü mövcudluqdan xatirəyə və yad etməyə keçid təsəvvürünü əhatə edə bilər, lakin məna avtomatik olaraq ikimərtəbəliliyin öz faktından irəli gəlmir [7].

Yeraltı qat. Yeraltı kamera tikilinin konstruktiv işində iştirak edir. Möminə Xatun sərdabəsi

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.24299530

xüsusilə ifadəlidir: mərkəzi dayaq və radial şəkildə şaxələnən tağlar üst həcmi dəstəkləyən və qüvvələri daxili dayağa və xarici kontura ötürən məkan baxımından əlaqəli sistem əmələ gətirir.


Günbəzin qoşa qabığı və ikimərtəbəli qüllənin tamamlanması. Yusif ibn Küseyr və Mömінə Xatun məqbərələrində Əcəmi qoşa qabıqlı günbəzlərdən istifadə etmişdir: daxili qabıq üst kameranın real məkanını formalaşdırır, xarici isə hündür piramidal və ya çadırvari siluet yaradır. Belə bir həll tikilinin daxili miqyasını və xarici obrazını müstəqil şəkildə tənzimləməyə imkan verir [3]. Daxili günbəz məkan örtüyü funksiyasını yerinə yetirir və divarların üst hissəsini birləşdirir. Xarici örtük daxili günbəzi atmosfer təsirlərindən qoruyur və şaquli istiqamətlənmiş siluet yaradır. Qabıqlar arasında boş məkan qalır. Belə örtük qatları arasında qalan hava boşluğu üst hissənin yüngülləşməsini, istilik izolyasiyasını yaradır və seysmik təsirlər zamanı ətalət kütləsini azaldır.

Seysmoloji aspekt. Naxçıvan seysmik cəhətdən fəal bölgədə yerləşir, buna görə də kərpic qülləvari tikililərin məkan dayanıqlığı ayrıca nəzərdən keçirilməyə layiqdir. Çoxüzlü korpus, yeraltı dayaq sistemi, qoşa örtük və kütlələrin paylanması müasir mühəndislik şərhi üçün maraq doğurur.

Mömінə Xatunda mərkəzi dayaq və ondan şaxələnən tağlar məkan baxımından əlaqəli aşağı konstruksiyanı formalaşdırır. Yusif ibn Küseyr məqbərəsində kompozisiya daha yığcamdır. Müqayisə bünövrənin təşkili üsullarındakı fərqləri aşkar edir, lakin seysmik təsirlər zamanı binaların davranışının mühəndislik qiymətləndirilməsini əvəz etmir. İki abidənin müqayisəsi mühəndislik modellərinin fərqini göstərir. Yusif ibn Küseyr məqbərəsində səkkizüzlü korpusun yığcamlığı, massiv kərpic hörgüsü və dəqiq künc dayaqları üstünlük təşkil edir. Mömінə Xatun məqbərəsində sistem mürəkkəbləşir: onüzlü korpus onüzlü mərkəzi dayaqla, radial oxvari tağlarla və şaquli qabırğaların daha inkişaf etmiş sistemi ilə birləşir. Ona görə də Əcəminin metodunun təkamülünü monolit səkkizüzlü dayanıqlıqdan daha mürəkkəb məkan-karkas onüzlü sistemə keçid kimi izləmək olar. Hörgünün üfüqi qurşaqları və epiqrafik frizlər qüllə həcmlərinin üzlərini vizual olaraq birləşdirir. Onların bağlayıcı və ya «seysmik» qurşaqlar kimi mümkün konstruktiv funksiyasını yerində aparılmış tədqiqatların məlumatları və bərpa tədqiqatlarının materialları üzrə yoxlamaq lazımdır [3]. Deməli, ikimərtəbəli struktur, radial tağlar, çoxüzlü forma və tamamlanma konstruksiyası məkan sisteminin qarşılıqlı əlaqəli elementləri kimi nəzərdən keçirilə bilər. Onların seysmodavamlılığa konkret töhfəsi xüsusi mühəndislik hesablamaları və müayinələri tələb edir.

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (8): page 86-95
DOI: https://doi.org/10.5281/zenodo.24299530



3. **4.**

Şəkil 3. Yusif ibn Küseyr türbəsinin şaquli kəsiyinin həndəsi və proporsional təhlili.

Şəkil 4. Yusif ibn Küseyr türbəsinin memarlıq kəsiyi əsasında proporsional münasibətlərin müqayisəli qrafik təsviri.

Kompozisiya-həndəsi təhlil və formanın semantikası. Yusif ibn Küseyr və Mömınə Xatun məqbərələrinin müqayisəsi Əcəminin metodunun təkamülünə təkcə səkkizüzlüdən onüzlü xarici forma kimi baxmağa imkan vermir. Daha əhəmiyyətlisi Yusif ibn Küseyr məqbərəsinin nisbətən bütöv və yığcam mərkəzi sxemindən mərkəzi çoxüzlü dayağın, radial şəkildə şaxələnən tağların və çoxüzlü xarici konturun qarşılıqlı təsirinə əsaslanan Mömınə Xatun məqbərəsinin daha mürəkkəb məkan sisteminə keçiddir. Bu halda Əcəmi memarlıq dilinin inkişafı təkcə üzlərin sayının dəyişməsində deyil, həm də məkanın konstruktiv təşkili prinsipinin özünün mürəkkəbləşməsində təzahür edir [5].

Bu sistemdə Mömınə Xatun məqbərəsinin yeraltı qatı köməkçi dəfn kamerası deyil, bütün tikilinin fəal konstruktiv əsasını təşkil edən element kimi çıxış edir. Mərkəzi dayaq və radial tağlar planın həndəsi quruluşunu, yüklərin ötürülməsi yollarını və daxili məkanın xarakterini birləşdirən qarşılıqlı əlaqəli konstruktiv sistem yaradır. Beləliklə, sərdabənin konstruktiv məntiqi abidənin ümumi memarlıq konsepsiyasının ayrılmaz hissəsinə çevrilir [5].



Şəkil 5. Mömınə Xatun türbəsinin dekorativ kompozisiyalarında həndəsi quruluş və çoxşüalı ulduz motivləri.

Mömınə Xatunun həndəsi təşkili xüsusilə vacibdir: xarici onüzlü korpus dairəvi daxili məkanı əhatə edir, yeraltı sərdabə isə bir sıra mənbələrdə onüzlü kimi təsvir edilən mərkəzi dayağa malikdir. Bu formaların və tağların radial sisteminin uzlaşdırılması abidənin məkan prinsipini aşkara çıxarır. İlkin hündürlük itirilmiş tamamlanma ilə birlikdə adətən təqribən 34 m qiymətləndirilir [2]; qorunub saxlanılmış korpus təqribən 25 m-ə çatır.


Üst qat obrazına görə prinsipial şəkildə fərqlənir. On üzün hər birinin xarici səthinin müstəvisi

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.24299530

müstəqil dekorativ kompozisiyaya çevrilmişdir. Üzlər stalaktit elementlərlə tamamlanan dayaz nişlərlə tərtib olunmuşdur; onların səthləri həndəsi ornamentlə və kufi yazılarla örtülmüşdür. Korpusun üst hissəsindən firuzəyi şirə ilə ayrılmış epiqrafik friz keçir. Beləliklə, yazı təkcə məna deyil, həm də kompozisiya funksiyası qazanır: o, bütün üzləri vahid üfüqi qurşaqda birləşdirir [8].

Mömünə Xatunun ornamental həlli fasad sahələrinin müxtəlifliyini və ümumi kompozisiya quruluşunun bütövlüyünü birləşdirir. On üz üzərində nişlərin miqyası, şaquli bölgülər və fasiləsiz epiqrafik qurşaqla birləşdirilmiş müxtəlif həndəsi quruluşlar tətbiq olunmuşdur. Əlahiddə elementlərin və üsulların təkrarlanması fasadların bütün ornamental kompozisiyasının eyniliyi demək deyil; uyğunluqların dəqiq xarakteri müqayisəli qrafik qeydiyyat tələb edir [9]. Daxili tərtibat nisbətən təmkindir; günbəz altında adlar və yazılar olan dairəvi medalyonlar nəzərə çarpan dekorativ elementlərdir. Onların qiblə istiqaməti ilə mümkün əlaqəsi əlavə təsdiq tələb edir.



Şəkil 6. Mömünə Xatun türbəsinin dekorativ tərtibatı: kufi yazı qurşağı və həndəsi ornament elementlərinin sxematik təsviri.

Semantik təhlil. Semantik təhlil konkret memarlıq fərqindən irəli gəlir: Yusif ibn Küseyrin səkkizüzlü yığcam kompozisiyası və Mömünə Xatunun daha parçalanmış onüzlü sistemi gəzişmənin və qavrayışın müxtəlif ritmini yaradır. Bu formaların kosmoloji mənaları sənədləşdirilmiş şəkildə müəyyən edilmiş şərh deyil, mümkün olaraq qalır. Beləliklə, çoxüzlü formaların fərqi yalnız fasad ritmində deyil, konstruktiv və məkan təşkilində də özünü göstərir.

Abidələrin həndəsi dili ornamentdə də özünü göstərir: dairə, kvadrat, çoxbucaqlı fiqurlar, çoxşüalı ulduzlar və təkrarlanan həndəsi şəbəkələrdən istifadə olunur. Bu motivlərin müxtəlifliyi fasad bölgülərinin vahid ritminə tabe edilir. Girih ornamentinin həndəsi şəbəkələri mərkəzi kompozisiyalı fiqurların bölünməsi, modulların təkrarlanması və çevrilməsi əsasında qurulur. Semantik şərh baxımından bu xüsusiyyət vahid kompozisiya mərkəzini çoxsaylı dekorativ elementlərlə əlaqələndirməyə imkan verir.

Gülüstan məqbərəsində ikimərtəbəli struktur qorunub saxlanılır, lakin aşağı kamera, sərdabələrin əksəriyyətindən fərqli olaraq, yer səviyyəsindən qaldırılmışdır; üst hissə onikibucaqlı

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.24299530

qüllə əmələ gətirir, daxili otaq isə dairə kimi həll olunub. Bununla da «aşağı qəbir qat — üst xatirə həcm» prinsipi qorunub saxlanılır, lakin başqa məkan ifadəsi alır [5].

İki səviyyənin — aşağı dəfn və üst xatirə və dua kamerasının məhz mövcudluğu daha geniş regional tipdən danışmağa imkan verir ki, onun daxilində Naxçıvan məktəbi özünün xüsusi, ən şaquli və dinamik növünü işləyib hazırlamışdır [10]. Bərdə məqbərəsində də ikimərtəbəlilik göz qabağındadır: qəbir sərdabəsi silindrik qüllə ilə birləşdirilir, kərpicdən və firuzəyi saxsılardan xarici dekor isə epiqrafikanı fasadın əsas tənzimləyici motivinə çevirir. Bu nümunələr Naxçıvan modelinin həyat qabiliyyətini təsdiq edir və eyni zamanda onun regional şərhlərinın müxtəlifliyini göstərir [3]. Xoy və Salmasdakı ikimərtəbəli məqbərələri, eləcə də Türkiyənin Şərqi Anadolu bölgəsindəki abidələri müqayisəli nümunələr kimi qeyd etmək olar. Bu analoqlar Naxçıvan məqbərələrini XI–XIII əsrlərdə qülləvari xatirə memarlığının inkişaf etdiyi geniş mədəni mühitdə nəzərdən keçirməyə imkan verir. Regional nümunələr nisbətlərinə, aşağı qatın ifadə dərəcəsinə, örtük tipinə və dekorativ işlənməsinə görə fərqlənir. Əcəminin Naxçıvandakı əsərləri zərif nisbətləri, dəqiq həndəsi quruluşu, güclü şaquli kompozisiyası və kərpic konstruksiyasının ornamentlə üzvi əlaqəsi ilə seçilir [3].

Regional oxşar nümunələr dəfnin yad etmədən ayrılmasının məkan üsullarının müxtəlifliyini təsdiq edir; konkret abidənin dini mənasını müəyyən etmək üçün müstəqil tarixi dəlillər lazımdır.

Nəticə. Əcəminin yaradıcılığının xüsusiyyəti aşkar şəkildə ifadə olunmuş ikimərtəbəliliyi olan qüllə tipli məqbərənin formalaşması olmuşdur. Sonrakı dövrlərdə oxşar qülləvari məqbərələr Azərbaycanda və Kiçik Asiyada yayılmışdır; Naxçıvan nümunələri bu zaman vurğulanmış şaquliliyi və siluetinin dinamikliyi ilə seçilir [3]. Ümumi ikimərtəbəli strukturu (sərdabə və üst kamera) qoruyub saxlayaraq, Əcəmi məqbərələri sferik günbəzlə deyil, çadırvari (piramidal və ya konusvari) örtüklə tamamlanır. Daxili örtük və xarici tamamlanma fərqlənir. Daxili günbəz xatirə kamerasının məkanını formalaşdırır, xarici piramidal örtük isə hündür qüllə silueti yaradır.

Yusif ibn Küseyr məqbərəsi yığcam və aydın oxunan ikihissəli sxemi təmsil edir ki, burada səkkizüzlü həndəsi quruluş yeraltı və yerüstü hissələri birləşdirir. Mömінə Xatun məqbərəsində həmin prinsip daha mürəkkəb mühəndislik inkişafı alır: mərkəzi dayaq, radial tağlar, onüzlü qüllə və qoşa örtük yüklərin paylanmasının çoxsəviyyəli sistemini yaradır.

Seysmoloji aspekt ikimərtəbəliliyin rolunu yeni şəkildə qiymətləndirməyə imkan verir. Kütləvi və sərt bünövrə, üst hissənin yüngülləşməsi, çoxüzlülük, üfüqi bağlayıcı sıralar və örtüyün qoşa qabığı məkan dayanıqlığının artırılmasının passiv üsulları ilə müasir terminologiyada müqayisə oluna bilən əlamətlərə malikdir. Bu zaman sübut olunmuş konstruktiv faktları və onların müasir mühəndislik şərhini fərqləndirmək lazımdır.

Tədqiqatın semantik nəticəsi dəfn və anma məkanlarının, gizli aşağı və təmsilçi üst qatların qarşılaşdırılmasının müəyyən edilməsindən ibarətdir. Beləliklə, Əcəmi Naxçıvaninin yaradıcılığında

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

ikimərtəbəli məqbərə yalnız xatirə tikilisi deyil, bütöv memarlıq modelidir. Bu modelin davamlılığı konstruktiv zərurətin, həndəsi quruluşun və müqəddəs məna qatlarının qarşı-qarşıya qoyulmadan vahid sistemdə birləşdirilməsi ilə izah olunur. Məhz bu bütövlük Naxçıvan memarlıq məktəbinin səciyyəvi xüsusiyyətlərindən biridir.

Ədəbiyyat siyahısı

1. Səfərli H. Naxçıvan türbələri. Naxçıvan: «Əcəmi» Nəşriyyat-Poliqrafiya Birliyi, 2018. 40 s. https://science.gov.az/az/forms/chlenyikorrespondentyi/1578 (müraciət tarixi: 07.10.2026)
2. Усейнов М.А., Бретаницкий Л.С., Саламзаде А. История архитектуры Азербайджана. М., 1963. 396с. URL: https://www.preslib.az/ru/book/fKiaQc7ACTU8g9k (müraciət tarixi: 07.10.2026)
3. Бретаницкий Л.С. Зодчество Азербайджана XII–XV вв. и его место в архитектуре Ближнего Востока. М.: Искусство, 1966. URL: https://books.google.com/books?id=svUS0AEACAAJ (müraciət tarixi: 07.10.2026)
4. Jung C. G. The Archetypes and the Collective Unconscious. 2nd ed. Princeton: Princeton University Press, 1969. 451p. URL: https://books.google.com/books?id=Yc5PlU9MyDwC (müraciət tarixi: 08.10.2026)
5. Səfərli H. Naxçıvanın türk-islam mədəniyyəti abidələri. Naxçıvan: Əcəmi NPB, 2017. 216s. URL: https://www.clb.az/elektron/Naxcivan/kitab/108444.pdf (müraciət tarixi: 08.10.2026)
6. Салаева Р. Нахчыван — наследие архитектуры. Bakı: 2002. 240 с
7. Səfərli H. Naxçıvanda sufiliklə bağlı mərkəzlər. Bakı: Elm və təhsil, 2013. 328 s. URL: https://science.gov.az/az/forms/strukturnyie-podrazdeleniya/2670 (müraciət tarixi: 08.10.2026)
8. Xəlilov Y. Möminə Xatun türbəsinin kitabələri: düşüncələr və mülahizələr // 525-ci qəzet. 07.12.2023. URL: https://525.az/news/245041-momine-xatun-turbesinin-kitabeleri-dusunceler-ve-mulahizeler (müraciət tarixi: 07.10.2026)
9. Afshar H., Mortezaei M. Analysis of the Use of Diverse Geometric Motifs without Observing the Principle of Symmetry in Seljuk Brickwork // Negarineh Islamic Art. 2023. Vol. 10. No. 26. P. 5–18. DOI: https://doi.org/10.22077/NIA.2022.5052.1577 (müraciət tarixi: 07.10.2026)
10. Халилов Б.М., Мустафаев М.Р., Мамедов В.И. Культовые сооружения Азербайджана // Проблемы науки. 2018. №6 (30). С.104–106. URL: https://scienceproblems.ru/images/PDF/2018/30/pn-6-30.pdf (müraciət tarixi: 07.10.2026)
11. Бретаницкий Л.С. Художественное наследие Переднего Востока эпохи феодализма. М.: Советский художник, 1988
12. Гиасси Дж. Архитектурные памятники эпохи Низами. Bakı: 1991. 256 с
13. Алиев Г. Гармония в творчестве зодчего Аджеми Нахчивани. Bakı: Şərq-Qərb, 2007. 159с

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.24299530

14. Мешадиханум Неймат. Корпус эпиграфических памятников Азербайджана. T.III. Арабо-персо-тюркоязычные надписи Нахчыванской Автономной Республики (XII — начало XX века). Bakı: «XXI», 2001. 216 с

15. Аскерова Н.С. Архитектурный орнамент Азербайджана. Bakı: 1961

16. Салимова А. Восьмигранность в архитектуре Азербайджана // Айыы Таҥара и кузнечный культ в тенгрианстве: материалы III Всероссийской научно-практической конференции с международным участием. Якутск, 2022. С. 120–131

17. Саламзаде Э.А. Творчество Аджеми Нахичевани и его влияние на мировую архитектуру // История архитектуры, градостроительства и реставрации. 2024. Т.24. №1. С.6–15. DOI: https://doi.org/10.5281/zenodo.11350189 (müraciət tarixi: 09.10.2026).

18. Cəfərli B. Əcəmi Əbubəkr oğlu Naxçıvani memarlığında tətbiq olunan bəzi ornamentlərin türk mifologiyası ilə bağlılığı // Elmi İş / Scientific Work. 2025. Vol.19. No.4. P. 39–43. DOI: https://doi.org/10.36719/2663-4619/114/39-43 (müraciət tarixi: 07.10.2026)

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license